# Xarici siyasətimizin prioritet istiqaməti



***Prezident İlham Əliyevin illər ərzində yürütdüyü çoxşaxəli, konstruktiv, məqsədyönlü diplomatiya və 2021-ci ildə əldə olunan nəticələr Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərinin düzgün müəyyənləşdirdiyindən xəbər verir. Heç şübhəsiz, bu uğurlu diplomatiya piramidasının sonuncu və zirvə mərhələsində Qarabağ Zəfəri dayanırsa, digər pillələrdə Azərbaycanın beynəlxalq münasibətlər sisteminin başqa aktorları kimi, dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərini daha da dərinləşdirməsi durur.***

Müasir dövrdə beynəlxalq təşkilatlar yeni beynəlxalq sistemin və qlobal iqtisadiyyatın mühüm aktoru kimi qəbul olunur. Heç şübhəsiz ki, beynəlxalq institutların yayılması, adətən, qloballaşma, transmilli mübadilə və kommunikasiya səviyyələrinin artması ilə əlaqələndirilir. Qloballaşan dünyada yaranmış kollektiv fəaliyyətin getdikcə daha mürəkkəb dilemması ilə məşğul olmaq üçün bu qurumlara ehtiyac var. Bu baxımdan da beynəlxalq təşkilatlarla aktiv şəkildə çalışmaq Azərbaycanın xarici siyasətində də əsas prioritetlərdən birinə çevrilmişdir. Müasir siyasi reallıqlar sübut edir ki, suverenlik getdikcə daha çox öz dövlətini xarici təsirlərdən təcrid etmək yolu ilə deyil, bütün növ beynəlxalq təsisatlarda səmərəli iştirak etməklə müəyyən edilə bilər. Bütün bu reallıqları çevik dəyərləndirməyi bacaran, müasir çağırışlara adekvat cavab verə bilən görkəmli diplomat İlham Əliyev Azərbaycanın sıx əməkdaşlıq etdiyi təşkilatlarla bir prinsip üzərində elə işləyib ki, dövlətimiz həmin təşkilatların imkanlarından yararlandığı qədər, biz də o təşkilatların dünyadakı nüfuzunun artırılmasına xidmət etməyi qarşımıza məqsəd qoymuşuq. Bu baxımdan da təşkilatlarda sədrlik etdiyimiz dövrdə irəli sürülən yeni təşəbbüslər təşkilatların dünyada cərəyan edən proseslərin idarə edilməsində və dizaynındakı rolunu əhəmiyyətli dərəcədə artırmışdır.

Azərbaycan müxtəlif beynəlxalq platformalarda yalnız qarşılaşdığımız məsələlərin deyil, habelə, bütün dünyanı yaxından maraqlandıran qlobal miqyaslı problemlərin həllinə töhfə verməyə çalışır. Bunun məntiqi nəticəsi olaraq, Azərbaycanın səyləri dünya ictimaiyyəti tərəfindən də yüksək dəyərləndirilir. Dövlət başçımızın "vaksin millətçiliyini" sərt tənqid etməsi, varlı və kasıb ölkələr arasında vaksinləşmə məsələsinin ədalətsiz bölgüsünü pisləməsi, Azərbaycanın 2020-ci ildə Dünya Səhiyyə Təşkilatına 10 milyon dollar yardım etməsi, pandemiya ilə mübarizədə ayrı-ayrı dövlətlərə maliyyə və humanitar yardımlar göstərməsi Azərbaycan dövlətinin ümumbəşəri məsələlərdə beynəlxalq münasibətlər sisteminin etibarlı tərəfdaş obrazını gözümüzdə canlandırır.

Ölkəmizin ötən ildə diplomatik masada mövqelərini möhkəmləndirməsinin nəticəsidir ki, bu gün respublikamız regionun yeni geosiyasi mənzərəsini formalaşdırmaqla yanaşı, region tarixində yeni səhifələrin açılmasını təmin edir. Belə ki, Azərbaycan –Rusiya –İran, Azərbaycan – Gürcüstan –Türkiyə, Azərbaycan – İran –Türkiyə, Azərbaycan–Türkiyə – Pakistan, Azərbaycan –Türkiyə –Türkmənistan kimi üçtərəfli dialoq platformaları ölkəmizin beynəlxalq statusunun artırılması ilə yanaşı, region ölkələri üçün yeni iqtisadi perspektivlər vəd edir. Dövlət başçımızın qəbul etdiyi müdrik qərarların nəticəsidir ki, region ölkələri arasında daha etibarlı münasibətlər bərqərar olur və investisiya cəlbediciliyi artır.

2021-ci ildə Azərbaycanın xarici siyasətində yadda qalan daha bir hadisə yeni adı ilə Türk Dövlətlər Birliyi olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına uğurla sədrlik etməsidir. 2021-ci il noyabrın 12-də Prezident İlham Əliyevin Qarabağın azad edilməsi işində göstərilən səylərə və türk birliyinin daha da gücləndirilməsinə töhfələrinə görə, Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsini xüsusi qeyd etməliyik. Bundan əlavə, Azərbaycan BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda öz mövqeyini daha da gücləndirməklə, həm də bu təşkilatların beynəlxalq münasibətlər sistemində nüfuzunun artırılmasına əvəzsiz töhfələr verdi.

2021-ci ilin başlanğıcında Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Moskva, ilin sonuna doğru Soçi, Aşqabad, ardınca Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə keçirilən görüşlər Azərbaycanın mövqeyini gücləndirməklə yanaşı, əldə etdiyimiz Zəfərin leqallaşdırılması işində əhəmiyyətli rol oynadı. Aydın oldu ki, ölkəmizin mövqeyi beynəlxalq aktorlar tərəfindən də qəbul olunur.

Azərbaycan ötən ildə beynəlxalq hüquqi müstəvidə də böyük bir uğura imza atdı. Belə ki, Azərbaycan Ermənistanı hüquqi müstəvidə, BMT-nin Beynəlxalq Ədalət Məhkəməsində də məğlub etdi. Daha sadə dillə desək, Ermənistan dövlətinin yalan üzərində qurulduğu rəsmi şəkildə sübuta yetirildi. Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın əsas iddiası və məqsədi olan "müharibə məhbuslarının dərhal geri qaytarılmasına dair iddiası", Ermənistanın Hərbi Qənimətlər Parkının bağlanmasına, İrəvanın Azərbaycan tərəfindən müharibə cinayətlərinin araşdırılmasına dair iddiasını təmin etmədi. Beynəlxalq məhkəmə bildirdi ki, Ermənistanın Azərbaycan tərəfindən müharibə cinayətlərinin araşdırılmasına dair iddiası ilə əlaqədar əsaslandırılmış sübutlar təqdim edilməyib. Əslində, məhkəmə sadə formada Ermənistanın yalan danışdığını ifşa etdi.

Ölkə daxilində rəsmi qəbullar, işğaldan azad edilmiş ərazilərə, regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar digər regionlara, habelə xaricə – Belçikaya, Türkmənistana, Türkiyəyə, Rusiyaya səfərləri, Füzuli Beynəlxalq Hava Limanının açılışı və s. kimi əhəmiyyətli hadisələri nəzərə alıb, cənab Prezidentin 2021-ci il üçün iş qrafikinə nəzər yetirdiyimiz zaman onun nə qədər dolğun olduğunun şahidinə çevrilirik.

Əldə etdiyimiz konkret nəticələr onu deməyə əsas verir ki, 2022-ci ildə Azərbaycanın xarici siyasətinin əsas prioriteti beynəlxalq münasibətlər sistemində mövqeyimizin daha da gücləndirilməsi ili kimi tarixə düşəcək. 2022-ci ilin "Şuşa ili" elan edilməsi həm daxili, həm də xarici siyasətimizin bundan sonra da uğurla reallaşdırılacağından, dövlət başçımızın bütün qərar və addımlarında hər zaman olduğu kimi, Azərbaycan xalqının maraqlarının təmin ediləcəyindən xəbər verir. Bu, həm də bütün dünyaya sübut edəcək ki, torpaq əsl sahiblərinin əllərində olanda çiçəklənir, inkişaf edir. İnsanların rifah halında yaşaması, sadəcə, Azərbaycan vətəndaşına deyil, bütün bəşəriyyətə fayda gətirir. İndi bütün dünya görəcək ki, dağıtmaq yox, qurub-yaratmaq, torpaq dirçəltmək, tarixi saxtalaşdırmamaq, tarixi hadisələrin gedişini yanlış istiqamətə sürükləməmək, düzgün siyasət yürütmək və insanlığa töhfə vermək nə deməkdir. Regionda və dünyada artan iqtisadi tənəzzülün və siyasi kataklizmlərin hökm sürdüyü bir zamanda, xalqımızın monolit birliyi nəticəsində Azərbaycan tarixdə sülh göyərçini missiyasını uğurla icra edir.

**_Şəbnəm HƏSƏNOVA,_**
**_politoloq_**